## ПОДДЕРЖКА И ЗАШИТА КУЛЪТУРНОВО РАЗНООБРАЗИЯ ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Алийев Садраддин Малик кызы***

***Резюме***

Культурное разнообразие доказывает, что многонациональный, многоконфессиональный, многоязычный Азербайджан является уникальным географическим, геополитическим и культурным пространством, населенным представителями различных национальных и этнических групп. Традиционно традиции мультикультурализма и толерантности стали образом жизни для азербайджанцев, и сегодня они стали образом жизни для каждого гражданина Азербайджана, независимо от его национальной принадлежности, языка или религии. Невозможно реализовать концепцию единства и солидарности, обеспечивающую целостность любой нации, без национальной идеи. Культурное разнообразие азербайджанского народа создает полную картину его исторического пути, исторических традиций, национальных и духовных ценностей. Есть этнонациональные истоки этого разнообразия, особенно в Азербайджане, который во все периоды истории отличается красочным составом. Взаимодействие и культура десятков этнических и религиозных объединений, проживающих в Азербайджане - фольклор, диалект, обычаи, образ жизни, система верований и т.д. Определили единство разнообразия.

***Rəyçi: P.ü.f.d. Cəlilov Azər Muzadil oğlu***
***Sosial fənlər kafedrasının 09 sentyabr 2021-ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olduğu tarix 17 sentyabr 2021-ci il***

**UOT:390.**

## İBTİDAİ İCMA QURULUŞUNDA QADININ CƏMİYYƏTDƏ YERİ VƏ ROLU

***Rəhimova Gülnar Yaşar qızı***
***Gəncə Dövlət Universiteti***
**gulnar.rahimova1989@gmail.com**

**Xülasə:** *Bu məqalədə, ilkin sinfi cəmiyyətlərdə, ailədə qadınların ailədaxili məişətdə və ictimai həyatdakı rolu və ona dair müasir elmi nəzəriyyələr araşdırılmışdır.İnsanların icma halında yaşadığı dövrdə habelə Paleolit və Neolit dövründə də onların torpağa və anaya olan bağlılığı ailədə və cəmiyyətdə ananın rolunun daha qabarıq olduğunu ortaya çıxarır. Bu da öz növbəsində müasir alimlərin adını çəkdiyimiz mövzu ətrafında fikir ayrılıqlarına səbəb olur ki, bu da araşdırılan əsas mövzulardan birini təşkil edir. Mövzu həmçinin müxtəlif erkən dövlət qurumlarında qadınların cəmiyyətdəki rolunu əks etdirir.*

**Açar sözlər:** anaxaqanlığı, qədim dövr, rol, ailə, cəmiyyət
**Ключевые слова:** матриархат, древние времена, роль, семья, общество
**Key words:** matherhood, antiquity, role, family, society

50-ci illərin əvvəllərində Sovet dövrünün sosioloqları və etnoqrafları qadının ibtidai icma quruluşundakı rolu haqqında kritik düşüncələrə malik idilər. Hətta 1955-ci ildən başlayaraq matriarxat nəzəriyyəsi inkar edilməyə başlanılmışdır. Y.Semyonovun araşdırmalarına əsasən anaxaqanlığının yaranması və inkişafı bioloji faktorlardan deyil məhz sosioloji faktorlardan irəli gəlir. Eyni işdə Semyonov, Avstraliya aborigenləri arasındakı ikili qohumluğun daha əvvəlki bir ana ailəsinin dağılmasının nəticəsi olduğunu sübut etməyə çalışmışdı.

Məlum olan tarixəqədərki ailə, qadın ətrafında cəmlənmişdi, çünki tayfaları bir-birindən fərqləndirən yeganə cəhət ana xətti ilə olan qohumluq idi. Paleolit dövründə əməyin bölgüsünə dair nöqteyi-nəzərləri ümumiləşdirərək, demək olar ki, kişi ovçuluq, qadın isə meyvə yığmaqla məşğul olurdu. Arabir qadının kişidən heç də pis ovçuluq bacarığına malik olmamasının xeyrinə arqumentlər gətirilir. Prinsip etibarilə cavan və sağlam qadının cavan və sağlam kişi ilə eyni güclə ovçuluq edə bilməməsi üçün heç bir səbəb yox idi. Lakin hamilə və xüsusən də usaq böyüdən qadın ov zamanı heyvanları uzun müddət izləyib tapmaq iqtidarında deyildi, çünki bu məşğuliyyət onun yaşayış yerindən uzunmüddətli uzaqlaşmasını,iqlimin sərt, ov quşlarının sayı məhdud olduqda isə, əla idman formasında olmasını tələb edirdi. Belə qadınların əkinçilik işlərində iştirak etmələri üçün real problemlər yox idi, çünki bu işlərlə məşğul olan qadın uzun müddətə yaşayış yerindən uzaqlaşmırdı və çöl işləri zamanı bir neçə qadın bir-birini əvəz edə bilirdi [2, səh. 20].

Yüz ildən çox əvvəl F. Engels, qadınların kölələşdirməni tarixi prosesinin bir sinifin formalaşması ilə əlaqəli olduğu fikrini irəli sürdü. Burjua elmində isə qadınların sosial vəziyyətinin təkamülü məsələsi uzun müddətdir ki, səsləndirilir və bu yaxınlarda kəskin şəkildə bu ideya yenidən qaldırıldı. Qadın heykəlciklərinin təhlili zamanı məlum olur ki, Avropa və Qərbi Asiyadakı Son Paleolit və Neolit dövrü qadın heykəlcikləri mövzusu həm marksistlərin, həm də feminist oriyentasiya tədqiqatçılarının diqqətini çəkir [6, səh. 30]. Cənub-Şərqi Avropaya məxsus ibadətə əsaslanan bir mədəniyyət kompleksi olan ana ilahə yəni "Məhsuldarlıq tanrıçası" obrazı olduqca mürəkkəbdir: yalnız insanların deyil, həm də heyvanların məhsuldarlığına nəzarəti ilə əlaqələndirilir. Bu da əkinçilikdən əvvəlki və əkinçilik dövrünün xüsusiyyətlərini birləşdirir.

Gimbutasa görə, daha sonra həm yaşayış, həm də təbiətin dağıdıcı qüvvələrinin daşıyıcısı olan və matriarxal cəmiyyətin bir atributu olaraq bilinən doğuş ilahəsi, Ay tanrısı oldu. Neolit dövründə kişi və qadın prinsiplərinə kəskin bir bölgü yox idi və buna baxmayaraq Gimbutas həmin dövrün quruluşunu müxtəlif simvolizmlərdə görürdü. Bu dövrdə qadın-ananın cəmiyyətdəki dominant mövqeyi əks olunurdu. Həmin dövrdə inadkarlıq və matriarxata dair digər məlumatlar da öz əksini tapır. Bundan əlavə, kapitalizmə gedən yolda Namu Adasında (Marshall Adaları), bir əsrlik əkinçilik iqtisadiyyatına (kopra satışı) baxmayaraq, matriarxal əlaqələr, xüsusən də torpaq münasibətlərində hələ də güclüdür. Məlumatlara görə Zambiyada kapitalist münasibətlərin nüfuz etməsinə baxmayaraq və sinif formalaşması şəraitində, matrilinealizm ilk növbədə ən yoxsul kənd yerlərində hələ də davam edir. Erkən teokratik dövlət quruluşlarında, misal üçün, Ur şəhər dövlətində qadınlara daha çox məbəd ierarxiyasında yüksək vəzifələr verilidi. Bu da qadınların ümumi statusuna böyük təsir göstərirdi [5].

Məşhur İsveçrə alimi İohann Yakob Baxofen öz təbiətinə görə ana üzərindəki fiksasiyanın rasionalist yozumuna o qədər də bağlı deyildi və buna görə də faktları daha dərindən və obyektiv təhlil edə bilirdi. O, öz matriarxat nəzəriyyəsində belə bir fərziyyə irəli sürmüşdü ki, insanlığın inkişafında patriarxat cəmiyyətdən qabaq insanı anası, nəsli və torpaqla sıx bağlayan, onu bir fərd və sosial varlıq kimi dünya ilə ən sıx əlaqədə saxlayan bir mərhələ olmuşdu. Əvvəl də qeyd olunduğu kimi, bu cür təşkil olunmuş cəmiyyətdə ana ailədə, cəmiyyətin həyatında və dində mərkəzi fiqur idi. Baxmayaraq ki, Baxofenin tarixi quruluşlar haqqındakı bəzi fikirləri ilə mübahisə etmək olardı, o, şübhəsiz ki, ictimai təşkilatlanmanın və psixoloji strukturun formasını kəşf etmişdir. Bu, psixoloqlar və antropoloqlar tərəfindən saya alınmırdı, çünki, patriarxal düşüncə tərzinə görə, kişilər tərəfindən deyil, qadınlar tərəfindən idarə olunan cəmiyyət haqqındakı fikirlər onlara absurd gəlirdi [1, səh. 20]. Həqiqətdə isə şimal tərəfdən yürüşlərə məruz qalanadək Yunanıstan və Hindistanda matriarxal quruluşa malik mədəniyyətlərin mövcud olması haqda xeyli məlumatlar var. Bunu ana ilahələrin çəxluğu və onlara verilən əhəmiyyət sübut edir (Villendorflu Venera, Mohenco-Daro mədəniyyətindəki İlahi ana, İzida, İştar, Reya,

Nippurdakı İlahi İlan, Akkad su ilahəsi Ay və s.). Bundan əlavə Kiçik Asiya, Yunanıstan və Roma imperiyasında friqiyalıların ilahəsi Kibelaya sitayiş olunurdu. Kahinlər Kibelanın şərəfinə özünə əzab vermək, qurbanların qanında yuyunma, öz-özünü axtalamaq ayinli misteriyalar təşkil edirdilər. Bir fakt da maraqlıdır ki, hətta artıq matriarxat olmayan cəmiyyətlərdə belə ana, nəsil və torpaqla matriarxal əlaqələr növü nümunələrinə rast gəlmək olur. Əgər Freyd qan qarışmasına olan fiksiyada ancaq xəstə və mənfi amilləri görürdüsə, Baxofen anaya bağlılığın həm mənfi həm də müsbət cəhətləri haqqında dəqiq fikrə malik idi. Bunun müsbət amili matriarxal quruluşda səciyyəvi olan həyat, azadlıq və bərabərlik ruhuna bağlıdır. Ona görə ki, insanlar təbiətin, ananın övladlarıdır, onların hamsı bərabər olduğundan eyni hüquqa və iddiaya malikdir. Bu ideanın mənfi cəhətləri isə matriarxal mədəniyyətin təbiətə, qan qohumluğuna və torpağa bağlılığı nəticəsində insanın şəxsiyyətinin və ağlının inkişafına törətdiyi maneədir. Maraqlıdır ki, matriarxal quruluşun bu iki cəhəti axırıncı yüzilliyyin qarşı-qarşıya duran fəlsəfi məktəbləri tərəfindən istifadə olunmuşdu. Marksist məktəb Baxofenin ideallarını şövqlə qarşılamışdı, çünki bunda matriarxal cəmiyyətə məxsus bərabərlik və azadlıq elementləri qabağa çəkilirdi. Uzun illər bu nəzəriyyə praktiki olaraq kölgədə qaldıqdan sonra nasist filosofları ona daha boyuk şövqlə, ancaq tamamilə başqa səbəbdən diqqət yetirdilər. Onları bu nəzəriyyədə məxsusi olara məhz matriarxal quruluşun digər cəhəti olan qan və torpaq bağlılığının irrasionallığı maraqlandırırdı. Ana üzərindəki fiksasiya təbii əlaqələrin, təbiətlə fiksasiyanın davamıdır. Çünki, ana sevgisi ilahi mərhəmət kimidir: varsa – müqəddəs vergidir, yoxdursa – onu əldə etmək mümkün deyil [4, səh. 51].

Tanınmış sosial psixoloq, Erich Fromma görə insanın yaranması haqqındakı Bibliya əsatirində biz onu hələ də torpaqla ibtidai vəhdətdə görürük, o hələ əməyə ehtiyac hiss etmir, o hələ özünü dərk etmir. Qadın hələ kişidən ağıllıdır, ondan daha fəaldır, ondan daha cəsurdur. Ancaq günaha batandan sonra patriarx tanrı kişinin qadın üzərindəki üstünlüyünü bəyan edir. Yahudi- xristian ənənələrinin patriarxal ruhun mənəvi cəhətlərini qabartdığı bir dövrdə yunan düşüncəsi yaradıcı özünü ifadənin intellektual cəhətini inkişaf etdirərək özünün ən yüksək səviyyəsinə çatmışdır. Onun fikrincə, Olimpin patriarxal dünyasına tabe vəziyyətdə olan ilahələr surətlərində matriarxal dünyanın izləri hələ də qalmaqda davam edir. Buna misal olaraq yunan mifologiyasında müharibə və zəfər, o cümlədən müdriklik, bilik, incəsənət və sənət ilahəsi Afina Palladanı göstərmək olar.

Mövcud olan anaxaqanlığı münasibətlərinin qədim formaları dərin primitivlikdə və ən qədim dövlətlərdə əhəmiyyətini qoruyaraq, Kiçik Asiyada ən yaxşı şəkildə təmsil olunurdu. Tədricən sərvətin (mal-qara və kölələr) artması və hərbi işlərin erkən inkişaf etməsi analıq rolunun azalmasının açıq göstəriciləri idi. Mövcud məlumatlara görə, siniflərin formalaşması dövründə qadınların statusu Qərbi Asiyada hələ də yüksək səviyyədə qalırdı. Eramızdan əvvəl 6200-5400-cü illərdə Çatal Huyukda (Anadolu) suvarma əkinçiliyi və heyvandarlığın, həmçinin şəhərlərsalma və ticarətin inkişaf etdiyi dövrdə, dini simvolizm və mifologiyaya əsasən yalnız əkinçiliklə deyil, həm də ovçuluqla əlaqəli olan tanrıçalara üstünlük verilirdi. Burada nəzərə çarpan vacib əməllərdən biri qadınların kənd təsərrüfatı alətləri ilə birlikdə dəfn edilməsi idi. Uşaqlar və alətlər ya böyük platformaların altında qadınların yanında, ya da bir qədər kiçik platformaların altında, ancaq həmişə kişilərdən ayrı dəfn edilirdi.Bu, matrilineal və matrilokal bir cəmiyyətin olduğunun göstəricisidir. Buradakı cənazələrə nəzər salan zaman məlum olur ki, burada demək olar ki, sosial təbəqələşmə yox idi və məzarlar bir-birindən heç bir şəkildə fərqlənmirdi.

Eramızdan əvvəl 1700-1190- cı illərdə mövcud olmuş Hett çarlığında da anaxanlığının izlərini müşahidə etmək mümkündür. Burada çar ailəsində bacı və qardaş arasında nigahların mövcud olması ilə yanaşı, hakimiyyət çarın bacısının (tavananna) oğluna ötürülürdü. Əgər bacının vəliəhdi (oğlu) yox idi isə, bu zaman hakimiyyət ailədə böyük bacının ərinə ötürülürdü. Bəzən qadınlara öz ərlərindən, atalarından aslı olmayaraq müqavilə bağlamaq və torpaq sahibi olmaq hüququ verilirdi.

Nil vadisində yerləşən Misirdə isə qadın fiqurlarına hələ sülalələrəqədərki dövrdə rast gəlmək mümkündür. Daha sonrakı dövrlər üçün qadınlar burada daha çox dini mövzularda üstünlük təşkil edirdilər. Burada Orta Padşahlıq dövrünə qədər padşah titulu daxil olmaqla, digər vəzifələr də ana nəslindən ötürülürdü. Qədim Misirin mifologiyasında və dini inanclarında əsas fiqur tanrıça İsida idi. Mifə əsasən İsida öz qardaşına-ərinə əkinçiliyin əsaslarını öyrətmiş və onun parçalanmış bədənini həyata qaytarmışdır. Uzun müddət Qədim Yunanıstanda və Romada da İsidaya tanrı-ana obrazı kimi sitayiş olunurdu. Artıq Yeni Padşahlıq dövründən etibarən Misirdə qadının yeri və rolu əvvəlki dövrə nisbətən azalmağa başlamışdır. Təbii ki, adını çəkdiyimiz kultu tam anaxaqanlıq adlandırmaq olmaz. Lakin, qadınların burada rolunun böyük olduğu danılmaz bir faktdır [2].

Təxmini olaraq eramızdan əvvəl III minillikdə mövcud olan Krit adasında sosial stratifikasiyanın və urbanizasiyanın yaranmağa başladığı dövr həmçinin daxili münaqişələrin olmamağı və ticarətin intensiv inkşafı ilə seçilirdi. Və qeyd etmək lazımdır ki, tacirlər arasında yalnız kişilər deyil, qadınlar da çoxluq təşkil edirdi. Burada incəsənətdə qadın süjeti xüsusi rol oynayırdı. Qadınların əkin işlərindəki rolu hətta erkən sinfi cəmiyyətin yarandığı hesab olunan neolit dövründəki adət ənənələri özündə qoruyub saxlayırdı. Anadoluda olduğu kimi Krit qadınları da ovçuluqda iştirak edirdilər. Bəzi alimlərin fikrinə əsasən Kritdə real anaxaqanlığı mövcud olmuşdur. Buna sübut təsvirlərdə hökümdar kişi obrazının olmaması və kahin-qadının idarə etdiyi teokratik dövlət quruluşunun mövcud olmasıdır [3, səh. 48-53].

Beləliklə, qeyd etmək lazımdır ki, anaxaanlığı hipotezi ilə bağlı fikir ayrılığı xüsusilə qeyri-dəqiq terminologiyaya görə yaranırdı. Bir vaxtlar, matrilinealizmin matriarxiya ilə eyniləşdirilməsi də həmçinin fikir ayrılıqlarına səbəb oldu. Əlavə olaraq, qohumluğun ana xətti ilə inkişafı ideyası Morganın və Engelsin onu sosializmlə əlaqələndirməsinin nəticəsi idi. Və bu qohumluq sistemlərinin təkamülünün inkar edildiyi ABŞ və İngiltərədəki tarixi özəllik və funksionalizmlə ziddiyyət təşkil edirdi. Müasir sənayeləşmiş dövlətlərdə və ya üçüncü dünya ölkələrində matrilokal ailələr “yeni” bir forma olaraq ortaya çıxır. Bu daha çox tək anaların ev təsərrüfatlarına başçılıq etdiyi ailələrdir. Son Paleolit və Neolit dövrünə aid olan, Ön Asiya və Avropada yayılmış heykəlciklərə nəzər salsaq görərik ki, onlar arasında məkan-zaman davamlılığı mövcud deyil və bu bəlkə də sinifi cəmiyyətdən əvvəlki dövrdə üstünlük təşkil edən daha ümumi bir ictimai təşkilat tipinin olduğunun göstəricisidir [7, səh. 40-42]. Beləliklə, erkən sinfi cəmiyyətlərdə anaxaqanlığı formalarının, xüsusən də matrilineal formanın geniş yayılması haqqında məlumatlar bununla məhdudlaşmır. Bu mövzu ətrafındakı araşdırma və fərziyyələr, fərqli ölkələrdən olan elm adamları arasında dialoq üçün yaxşı bir səbəbdir.

## Nəticə

Beləliklə, qeyd etdiyimiz kimi İbtidai icma cəmiyyəti bəşər tarixinin ilkin pilləsini təşkil edir. Bu dövrün məlumatlarını təhlil edən sovet alimi A.D.Stolyar da həmçinin qadın heykəlciklərini geniş bir simvolika şəklində araşdırmış və qadınların Paleolit dövründə cəmiyyətdəki rolunu nəinki hegemonluq ilə, daha çox dünyagörüşü və insan şəxsiyyətinin formalaşması ilə əlaqələndirmişdir. Nəticə etibarilə, qeyd edə bilərik ki, İbtidai icma dövründə qadının ictimai həyatdakı yüksək mövqeyi, cəmiyyətdəki rolu onun ana, ailə ocağının qoruyucusu və ilkin nəslin yaradıcısı olması ilə əlaqədardır.

## *Ədəbiyyat*

1. Bachofen J.J. Mutterrecht und Urreligion. Stuttgart, 1954.
2. Fluehr-Lob. C.A.Marxist Reappraisal of the Matriarchate. Current Anthrop, Stanford, 1979.
3. Fromm E. Sağlam cəmiyyət. Bakı, Qanun, 2019.
4. David M. Kathleen G. Matrilineal Kinship. Univer. of Californ. Press, Los Angeles, 1961.
5. Webster P. Matriarchy: A Vision of Power ,Toward an Anthropology of Women. Monthly Review Press, Nyu-York, 1974.
6. Мёрдок Дж. П. Социальная структура. М: ОГИ, 2002.

7. Энгельс Ф. Происхождение семьи, частной собственности и государства. Маркс К. Энгельс Ф. Избранные произведения. Цюрих 1884.

## THE PLACE AND ROLE OF WOMEN IN SOCIETY DURING THE PRIMITIVE COMMUNITY PERIOD

***Rahimova Gulnar Yashar***

***Summary***

This article examines the role of women in primitive societies, the family, family life and public life, and modern scientific theories about it. During the community period, as well as during the Paleolithic and Neolithic periods, their attachment to the land and the mother made the role of the mother more important in the family and society. This, in turn, leads to differences of opinion among modern scholars on the subject we have mentioned, which is one of the main topics under study. The topic also reflects the role of women in society in various early government institutions.

## МЕСТО И РОЛЬ ЖЕНЩИНЫ В ОБЩЕСТВЕ В ПЕРИОД ПЕРВОБЫТНОЙ ОБЩИНЫ

***Рагимова Гюльнар Яшаровна***

***Резьюме***

В этой статье исследуется роль женщин в семейной и социальной жизни в первичных классовых обществах, семье и современных научных теориях по этому поводу. В период сообщества, а также в периоды палеолита и неолита их привязанность к земле и матери раскрывает большую роль матери в семье и обществе. Это, в свою очередь, приводит к разногласиям среди современных ученых по упомянутой теме, которая является одной из основных изучаемых тем. Тема также отражает роль женщин в обществе в различных первых государственных учреждениях.

***Rəyçi dos. Məmmədov Asim Şəfayət oğlu***
***Sosial fənlər kafedrasının 09 sentyabr 2021-ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olduğu tarix 18 noyabr 2021-ci il***